# FƏXRİMİZ HƏZİ ASLANOV



**Şəddat CƏFƏROV**

***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

İkinci Dünya müharibəsinin faşizm üzərində qələbə ilə başa çatmasından sonra bəşəriyyət belə fəlakətli müharibələrin bir daha baş verməməsi üçün səylərini birləşdirməyə çalışdı. Müxtəlif hərbi, siyasi qurumlar belə bir məqsəd ətrafında birliyə çağırış etdi ki, insanları fəlakətlərə sürükləyən müharibə istəklilərinin qarşısını vaxtında alsınlar. Məlumdur ki, İkinci Cahan savaşı 50 milyondan çox insanın qanı bahasına başa gəldi. O vaxtkı siyasi vəziyyət dünyanın aparıcı siyasətçilərinə həqiqətləri diktə edirdi. Ona görə də bu dağıdıcı müharibə, xüsusilə Yaponiyaya atılan atom bombalarının yaratdığı dəhşətli nəticələr bəşər nəslinin bu gün də yaddaşından silinmir.

Faşizmə qarşı müharibə o vaxtkı Sovet dövləti üçün sözün həqiqi mənasında Vətən müharibəsi xarakteri almışdı. Faşistlər Avropanı işğal etdikdən sonra bağlanmış müqavilələri çirkli kağızlar kimi bir tərəfə ataraq Sovet İttifaqının ərazisinə də soxuldu. Hitler Almaniyası üçün heç bir dəyər üstünlük kəsb etmirdi. Onu da deyim ki, Hitler Bakı neftinə də can atırdı. Demək, Azərbaycan üçün də bu müharibə xüsusi tale məsələsi idi. Yüz minlərlə azərbaycanlı gənc səfərbərliyə alınmışdı, orduda faşizmə qarşı qəhrəmanlıqla döyüşürdü. İndi dərin kədər hissi ilə qeyd edirəm ki, səfərbərliyə alınan Azərbaycan gənclərinin yarısından çoxu faşizmə qarşı döyüşlərdə həlak oldu, itkin düşdü.

Bu müharibə mənim üçün də çox böyük acılıqlar gətirib. Atam Muğdat Hüseyn oğlu da müharibənin ilk günlərindən səfərbərliyə alınmışdı. Onun məktubları cəbhənin müxtəlif yerlərindən gəlirdi. Anam son günlərinəcən atamın məktublarını öz sandığında qoruyub saxladı. Yaxşı yadımdadır, mən birinci sinfə gedəndən, hərfləri tanıyandan sonra anam həmin məktubları mənə də oxudurdu. Beləliklə, mən istəsəm də, istəməsəm də, müharibənin axırından başlayaraq müharibənin keçdiyi yerlərin səyyahı olurdum. Atamın yazdıqları ilə müharibəni, döyüşü təsəvvür edirdim. Elə həmin günlərdən bəri İkinci Cahan savaşının, yəni bizim üçün Böyük Vətən müharibəsinin iştirakçısı olan qəhrəmanlara qəlbimdə böyük sevgi hissi yaranmışdı. Hətta müharibədən sonra ən müxtəlif bədən xəsarətləri ilə döyüşdən qayıdanları əfsanəvi qəhrəmanlar kimi seyr edirdim. Onların yerişini, danışığını, hərəkətlərini qeyri-adi görkəmdə görürdüm. Bu daxili-mənəvi bağlılığın nəticəsi olaraq sonralar yaradıcılığımın çox böyük hissəsini müharibə qəhrəmanlarının həyatına həsr etdim. Onların qeyri-adi döyüş səhnələrini xatirələri əsasında qələmə aldım. Ayrı-ayrı kitablarda həmin müharibə hekayətlərini çap etdirdim.

Həmişə düşünmüşəm ki, vətənin taleyi ilə bağlı müharibələrin hər anını öyrənmək, müharibə qəhrəmanlarının hər birinin taleyini yazmaq bizim müqəddəs işimiz olmalıdır.

Müharibə caniləri yenə də var. Yenə də şəhərlər bombalanır, insanlar həlak olur, uşaqlar müharibə odlarında yanır, onların istəkləri, arzuları da məhv olur. Elə Qarabağ müharibəsini də yaddaşımıza gətirək, bizim nə qədər şəhərlərimiz məhv olub, yandırılıb, bünövrəsinə qədər sökülüb-dağılıb. Rusiya-Ukrayna cəbhəsi də alovlanıb. Bütün bunlar hamısı məhv olan insan taleləri deməkdir.

İndi Böyük Vətən müharibəsində yeni ildönümü ərəfəsindəyik. Belə bir ərəfədə müharibə qəhrəmanlarını xatırlamaq, onların şərəfli həyat yoluna bir daha nəzər salmaq yeni nəslin vətənpərvərlik, qəhrəmanlıq ruhunda tərbiyəsi üçün vacib şərtlərdən biridir.

Müharibədə yüzlərlə igid azərbaycanlı oğulları qəhrəmanlıqlarına görə yüksək fəxri adlara layiq görülüblər. İsrafil Məmmədovun, Gəray Əsədovun, Mehdi Hüseynzadənin və onlarca başqalarının döyüş yolu ekranlaşdırılıb, haqlarında dram əsərləri, təsirli nəsr əsərləri yazılıb. Ancaq bir qəhrəman var ki, onun haqqında hər vaxt ayrıca söhbət açmaq, onun həyat yolunu işıqlandırmaq yeni nəslin qəhrəmanlıq varisliyini təmin etməyə əsas verir. Bu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, sərkərdə Həzi Aslanovdur.

Azərbaycan tarixini çoxlu böyük sərkərdələr şöhrətləndiriblər. Böyük Albaniya sərkərdəsi Cavanşir, ərəb xilafətinə qarşı vuruşan Babək, Şah İsmayıl Xətai, Cavad xan və digərləri böyük qəhrəmanlıq örnəkləridir.

Həzi Aslanov da nəhəng Sovet dövlətinin çox milyonluq ordusunda ən yüksək qəhrəmanlıq və sərkərdəlik dərəcəsinə yüksəlmiş simadır. Çox təəssüf ki, qəhrəmanın həyatı, demək olar ki, Sovet sisteminin dağılmasına qədər ətraflı, əhatəli öyrənilməmişdi.

Bu böyük sərkərdənin dünya hərb tarixindəki yerini müəyyən edən, onun qəhrəmanlıq salnaməsini yaradan Musa Bağırov oldu. O, əməkdar incəsənət xadimi, professor, hərb tariximizin araşdırıcısı kimi məşhur olub. Ancaq onun ən böyük xidməti *"Sərkərdənin taleyi"* adlı sənədli əsəri yaratmasıdır.

Sovet dövləti dağılana qədər biz Həzi Aslanovu qəhrəman sərkərdə kimi tanıyırdıq. Onun qəhrəmanlıqları haqqında hər yerdə ağızdolusu danışılırdı. Amma biz bilmirdik ki, o, mühairbədəki igidliklərinə görə ikinci dəfə də Sovet İttifaqı Qəhrəmanı fəxri adına təqdim olunub. Bütün zamanlarda bədxahlar olur. Görünür, hansı bədxahınsa əli ilə həmin təqdimat yüksək dövlət qurumlarına çatdırılmayıb. Beləliklə, qəhrəmanın layiq olduğu fəxri ad ona ikinci dəfə verilməyib.

Sovetlər İttifaqı dağılandan sonra xalqlar öz müstəqilliklərinə qovuşdular. Azərbaycan da müstəqillik arzularına getmək üçün önəmli addımlar atırdı. Ancaq həmin dövrün ən böyük səhvlərindən biri bu idi ki, İkinci Dünya Müharibəsinin iştirakçıları, qəhrəmanları, demək olar ki, gözdən salınır, onlara diqqət və qayğı göstərilmirdi. Beləliklə, qəhrəmanlıqda varislik əlaqəsi qırılırdı. Amma ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra vəziyyət dəyişdi. Veteranların, müharibə qəhrəmanlarının Vətən savaşında göstərdikləri xidmətlərə önəm verildi. Ulu öndər 2002-ci ilin 9 mayında veteranlar qarşısında çıxış edərkən demişdir: *"Azərbaycan xalqı Sovetlər ittifaqının tərkibində İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin iştirakçısı olmuşdur. Azərbaycanın 600 minə qədər vətəndaşı cəbhəyə göndərilmişdir. Onlar qəhrəmancasına vuruşmuş, yarısından çoxu geriyə dönməmiş, özlərini qurban vermiş, həlak olmuşdur. Zəfərlə qayıdan Azərbaycan oğulları isə 1945-ci ilin 9 mayından indiyədək xalqımız üçün, millətimiz üçün böyük qələbənin rəmzidir. İllər keçir, nəsillər əvəz edir, bu gün də yaşayırlar. Biz hamımız böyük məmnuniyyət hissi keçiririk ki, Böyük Vətən Müharibəsinin veteranları bu gün bizimlə bərabərdir, xalqın içindədir, ictimai-siyasi fəaliyyətlə məşğuldurlar və xalq, müstəqil Azərbaycan dövləti qarşısında öz xidmətlərini göstərirlər"*. Bu fikirlərin arxasında dayanan həqiqət budur ki, müstəqil dövlətimiz müharibə veteranlarının fədakarlıqlarını yüksək dəyərləndirir, onların əvəzsiz xidmətlərini unutmurlar. Ulu öndər veteranlara keçmiş döyüş günlərini xatırladaraq böyük xidmətlərinə görə təşəkkür edirdi. Yeni nəslin qəhrəmanlıq ruhunda böyüdülməsi üçün onların şəxsi nümunəsini əvəzsiz bir örnək kimi təqdir edirdi.

Heydər Əliyev hərbi məktəbin kursantları qarşısında çıxış edəndə də müharibə qəhrəmanlarına xüsusi önəm vermiş və hər bir hərbçi gəncə Həzi Aslanov ruhunda böyüməyi tövsiyə etmişdi. Onun bu dəyərli sözlərini də burada yada salmaq yerinə düşər: *"Həzi Aslanov adına hərbi məktəbin kursantlarına üzümü tutub onlara bu qeyri-adi insana bənzəmələrini arzu edirəm. İstəyirəm ki, siz də hər şeydə: həyatda yüksəlməkdə də, xalqı və Vətəni sevməkdə də, yeri gələrsə haqq işi uğrunda canından keçməyi bacarmaqda da Həzi Aslanova oxşayasınız. Həzi Aslanov kimi qəhrəmanların hünəri xalqın qəhrəmanlıq salnaməsinə əbədilik yazılmışdır"*. Ulu öndər bu sözləri 1994-cü ilin 9 mayında demişdi. Demək, Heydər Əliyev hakimiyyətə qayıdışı ilə veteranlara münasibətin necə olmasına nümunə göstərmişdi. Sevindirici haldır ki, dövlətə rəhbərlikdə, veteranlara münasibətdə möhtərəm prezidentimiz Ali Baş Komandan İlham Əliyev də sədaqətli xələf kimi öz sələfinin yolunu davam etdirir. Möhtərəm Ali Baş Komandan İlham Əliyevin dəyərli düşüncələri bu gün də xüsusi əhəmiyyət kəsb edir: *"Mən çox şadam ki, Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş ənənələr bu gün davam etdirilir. Bilirsiniz ki, müstəqilliyimizin ilk illərində bəzi qüvvələr 9 May bayramını da ləğv etmək istəmişdilər və veteranlara münasibət dəyişmişdi. Biz bunu indi də bəzi ölkələrdə görürük. Görürük ki, bəzi ölkələrdə veteranlara münasibət o qədər də ədalətli deyildir. Amma xalqımızın ümummilli lideri 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra viziyyət tamamilə dəyişdi, bütün o mənfi meyillər aradan götürüldü və veteranlara layiq olduqları münasibət göstərilməyə başladı. Ədalət bərpa edildi və 9 May Qələbə günü Azərbaycanda geniş qeyd dolunur. Bu gün bu siyasət Azərbaycanda davam etdirilir. Mən dəfələrlə bəyan etmişəm ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti bütün sahələrdə davam etdiriləcəkdir. Bu bizə yeni uğurlar, yeni qələbələr gətirəcək, Azərbaycan xalqı daha yaxşı yaşayacaq, sosial məsələlər daha sürətlə öz həllini tapacaqdır. Xüsusilə sosial müdafiəyə ehtiyacı olan təbəqələrə daha böyük yardımlar göstəriləcək, əmək haqları, pensiyalar qaldırılacaqdır. Əlbəttə, veteranlara diqqət bundan sonra da yüksək səviyyədə olacaqdır. Mən çox şadam ki, bu gün Heydər Əliyev Fondu belə gözəl tədbir keçirir. Heydər Əliyev Fondu Azərbaycanın ictimai həyatında çox fəal iştirak edir, çoxlu proqramlar həyata keçirir, xüsusilə əsas diqqət sosial məsələlərə göstərilir. Kimsəsiz uşaqlara, çətin vəziyyət yaşayan insanlara yardım olunur. Hesab edirəm ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı verilmiş Fondun fəaliyyəti daşıdığı ada layiqdir"*.



Bütün bu deyilənlərdən belə bir nəticə hasil olur ki, kim vətən uğrunda xidmət göstəribsə, onun həyatı həmişə diqqətdə olacaqdır. İkinci Qarabağ Müharibəsinin qələbə ilə başa çatmasından sonra möhtərəm prezidentimizin şəhid ailələrinə, müharibə əlillərinə, veteranlara diqqətli münasibət tələb etməsi göstərir ki, ulu öndərin ən yaxşı ənənələri bu gün də uğurla yaşadılır.

Həzi Aslanovun həyat yolunu işıqlandıran *"Sərkərdənin taleyi"* kitabının ilk səhifələrində ona Sovet İttifaqı Qəhrəmanı fəxri adının verilməsi haqqında fərmanın surəti dərc olunub. Həzi Aslanov 22 dekabr, 1942-ci ildə bu şərəfli ada layiq görülüb. Bu o deməkdir ki, Həzi Aslanov hələ müharibənin əvvəlindən qəhrəman olduğunu sübut edib. Musa Bağırovun fədakar əməyi sayəsində qəhrəman halal haqqına yenidən çatdı. Amma, əlbəttə, bu uzun illərdən sonra mümkün oldu. Böyük Vətən mühairbəsindəki qələbədən 47 il sonra həqiqət öz təsdiqini tapdı. Burada 1-2 kəlimə müəllif haqqında demək istəyirəm ki, Musa Bağırov sözün həqiqi mənasında həqiqəti aşkara çıxartmaq üçün böyük mücadilə aparmış və son nəticədə qələbəyə nail olmuşdur. Bu, onun əvəzsiz xidməti idi. Onun öz təəssüratı da çox maraqlıdır: *"İllər boyu Həzi Aslanovun keçdiyi yollarda addımlamış, onun döyüşçü dostları ilə çoxsaylı görüşlər keçirmiş, müxtəlif arxivlərdə aylarla tədqiqat aparmışam. Topladığım materiallar 1988-ci ildə rus dilində buraxılmış "Generalın yolu" kitabında işıq üzü görüb. Kitab Azərbaycanda çox qısa müddətdə yayıldı və Həzi Aslanovun qəhrəmanlığı ilə öyünənlərin marağına səbəb oldu. 1000 nüsxə isə Həzi Aslanovun komandiri olduğu 35-ci qvardiya Şavli tank briqadasının daxil olduğu 3-cü mexaniklaşdırilmiş qvardiya Stalinqrad korpusunun Moskvada yerləşən veteran təşkilatına göndərildi. Tezliklə SSRİ-nin müxtəlif yerlərində yaşayan, vaxtilə Həzi Aslanovla birlikdə döyüşmüş veteranlardan, onların övladlarından saysız-hesabsız məktublar gəlməyə başladı.*

***(Davamı 11-ci səhifədə)***

# FƏXRİMİZ HƏZİ ASLANOV

***(Əvvəli 10-cu səhifədə)***

*Bu kitab məni Həzi Aslanovun xatirəsini əziz tutan onun keçmiş qvardiyaçı yoldaşları, dostları ilə doğmalaşdırdı. Bir çox faktları mən onlar üçün açıqlamışdım. Onlar da mənə bir çox yeni faktlar və sənədlər barədə məlumatlar çatdırdılar. Bunların içərisində ən əhəmiyyətlisi Həzi Aslanovun 1944-cü ildə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilməsi, naməlum səbəbdən bu təltifin reallaşmaması barədə məlumat oldu".* Təkcə elə bu düşüncələr göstərir ki, Musa Bağırov həqiqəti öz ucalığına qaytarmaq üçün az qala keçmiş Sovet İttifaqındakı bütün sağlam qüvvələri səfərbər edə bilib. Onun düşüncələrindən məlum olur ki, Həzi Aslanovun xatirəsi öz parlaqlığını 47 il sonra da onu tanıyanların qəlbində qoruyub saxlaya bilib.

Musa Bağırovun "*Sərkərdənin taleyi*" kitabı Azərbaycanda çox böyük coşqu ilə qarşılandı. Bu kitab haqqında hərb tarixçiləri, müharibə iştirakçıları, görkəmli alimlər və yazıçılar, xüsusilə fəal publisistlər ayrı-ayrı vaxtlarda dəyərli məqalələr nəşr etdirdilər. Tarix elmləri doktoru, professor Məzahir Abbasov kitaba yazdığı "*Həzi Aslanov barədə elmi-tarixi salnamə*" adlı qeydlərində müəllifin xidmətlərini bütün döyüş qəhrəmanlığına bərabər tutur, həm də çox maraqlı məqamlara diqqət yetirir. Məlum olur ki, Həzi Aslanovun həlak olmasının əsas səbəbi bədxahlıq olub. Onun əfsanəvi qəhrəmanlıqlarını qısqanan milli düşmənçilik aparan qüvvələr tərəfindən təşkil edilib. Yaxşı olar ki, elə Məzahir Abbasovun öz sözlərinə diqqət edək: "*O, yazdığı kitabla kifayətlənməyib, Həzi Aslanov haqqında başladığı çətin tədqiqat-axtarış işlərini davam etmək qərarına gəlmişdir. Musa Bağırov bu dəfə üzərinə daha çətin, daha məsuliyyətli iş götürmüşdür. O, Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adını nə üçün vaxtında almadığını və onun çox müəmmalı ölümünün səbəblərini araşdırmışdır. Musa Bağırov bir neçə dəfə Moskva şəhərinə, Ukrayna, Belarusiya, Litva respublikalarına getmiş, dəfələrlə Həzi Aslanovun silahdaşları ilə görüşmüş, geniş söhbətlər aparmışdır. Bu işdə Moskvadakı güclü erməni mafiyası və onun tərəfdarları hər yerdə ona qarşı maneəçiliklər yaratmışdır. Bütün bu işlər 1988-1991-ci illərdə olub. Bu illərdə bizim respublikaya qarşı informasiya blokadası daha güclü idi. Heç bir yerdən, hətta respublika rəhbərliyindən köməklik görməyən tədqiqatçı-jurnalist özü təkbaşına bütün bu maneələrə qarşı mübarizə aparmalı olub. Nəhayət, Musa Bağırov mübarizəni qələbə ilə başa vurub. O, 1991-ci ilin 18 iyununda respublikamıza, xalqımıza qarşı biganəlik göstərən, açıqdan-açığa həmişə erməni mövqeyində duran və bu işdə erməni mafiyasını dəstəkləyən SSRİ prezidenti Mixail Qorbaçovu fərman verməyə məcbur edib. Belə vətənpərvərlik, mübarizlik tədqiqatçı-jurnalist üçün qəhrəmanlığa bərabərdir. O, xalqımızın qəhrəman oğlu H.Aslanova ölümündən 47 il keçmiş ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verdirməklə bərabər təkzibedilməz faktlarla, sənədlərlə sübut etdi ki, Həzi Aslanov qətlə yetirilib. "Sərkərdənin taleyi" Böyük Vətən müharibəsi mövzusunda yazılmış ən yaxşı elmi-tarixi əsərlərdən biri hesab olunmağa layiqdir*". Əməkdar jurnalist Tahir Aydınoğlu kitabın yeni nəşrinə yazdığı qeydlərdə Ziya Bünyadovun sözlərini epiqraf gətirir: "*Musa, vaxt gələcək, sənin bu tədqiqatların əsasında elmi işlər yazılacaq...*". Bu sözlər havadan deyilə bilməzdi. Çünki Ziya Bünyadov təbiət etibarı ilə sərt həqiqət tərəfdarı idi. O, Musa Bağırovun gördüyü işin dəyərini yaxşı bilirdi.

Musa Bağırovun "*Sərkərdənin taleyi*" sənədlər əsasında yazılmış publisistik romanı qəhrəmanın həyatının ilk çağlarının, bir az da dəqiq desəm, onun doğulub böyüdüyü yerin, yurdun təsviri ilə başlanır. Müəllifin özünəxas publisistik təsvirləri bizi sanki Lənkəranın XX əsrin əvvəllərindəki çağlarına qaytarır.

Hərdən düşünürəm ki, qəhrəmanların formalaşmasında, onların mənəvi yüksəlişində onların doğulub-böyüdüyü mühitin təbiətinin də rolu əvəzsizdir. Hər kəs yaxşı bilir ki, məşhur Sovet şairi Nikolay Tixonov Lənkəranı "*Cənub mirvarisi*" adlandırmışdı. Hətta sonralar tanınmış yazıçı-publisist Sərdar Əliyev də Nikolay Tixonovun həmin sözlərini alaraq özü ayrıca kitab yazmışdı - "*Cənub mirvarisi*". Bu kitabda Lənkəranın müdrik insanları, hər iki cəbhənin qəhrəmanları tərənnüm olunurdu.

Belə düşünürəm ki, məktəblilərə qəhrəmanlar haqqında məlumat verilən də birinci növbədə onların doğulub-böyüdükləri mühit haqqında danışmaq lazımdır. Həmin yerin-yurdun təbiətini izah etmək lazımdır. Bu yolla biz yeni nəslə həm də həyatı öyrətmiş olarıq, həm də Azərbaycanın təbiətini öyrətmiş olarıq, bir sözlə, Azərbaycanı tanıtmış olarıq. Beləliklə, Musa Bağırovun "*Sərkərdənin taleyi*" kitabının başlanğıcında yer alan düşüncələrə diqqəti cəlb etmək istərdim. Çünki bu düşüncələr həm Lənkəranın təbiəti haqqında məlumat verir, həm də bu yerin, yurdun yetirdiyi qəhrəman oğulun dünyaya gəlişi haqqında dəqiq, aydın təsəvvür yaradır: "*Xəzərin sahillərində, Azərbaycanın cənub bölgəsində, İran sərhəddindən bir az bəridə gözəl Lənkəran şəhəri yerləşir. Bu şəhərin ayaqlarını mavi dəniz suları yuyur, ətrafı subtropik bitkilərdən hörülmüş çələnglə bəzənib, arxasında isə Talış dağlarının əsrarəngiz mənzərəsi qeyri-adi bir fon yaradır. Bu dağlardan hörük-hörük üfüqə doğru can atan çoxsaylı çeşmələr, axarlar aşağılarda gur sulu Lənkərançaya qovuşur. Bu cənnətmisal torpaq bizim qəhrəmanımızın - Həzi Əhəd oğlu Aslanovun vətənidir. Gələcək qəhrəman 1910-cu il yanvarın 22-də bu şəhərdə kərpic zavodunun fəhləsi Əhəd Aslanovun dünyaya göz açmışdı. Əhədin və onun arvadı Nuşunun sadə, kasıb ailəsində Həzidən sonra iki oğlan və qızlar da doğulmuşdu. Uşaqlar Həzini böyük sayırdılar. O, çox sürətli boy atır, hər şeyi öyrənib-bilməyə can atırdı. Oğlan çox ağıllı, fəhmli, güclü, çevik idi, uşaq oyunları ona çox sadə, maraqsız görünürdü. Həzi bir çox hallarda yaşıdlarından üstünlüyü seçilirdi. Cəsarətli, saf ürəkli uşaq sadəlövh görünəcək qədər sadə idi. Həzi eyni zamanda tənbəlliyə, yalançılığa dözümsüz, məbasız qəddarlığa qarşı barışmaz idi*". Musa Bağırovun fədakarlığı sayəsində ərsəyə gəlmiş əsərin bir dəyəri də orasındadır ki, o, Həzi Aslanovun ailə mühiti haqqında dəqiq təsəvvür yaradır. Qəhrəmanın atası Əhədin haqqında da kifayət qədər aydın məlumat var. Bu da onu göstərir ki, müəllif yalnız qəhrəmanı aramır, axtarmır, qəhrəmanın nəsil şəcərəsinə də diqqət yetirir. Əslini, soyunu öyrənməyə çalışır.

Həzi Aslanov keçən əsrin 10-cu illərindən üzü bəri - həyat işığı gördüyü gündən bəri Azərbaycanın tarixi taleyində mühüm hadisələr baş verib. Bu hadisələrin mahiyyətində Azərbaycanın müstəqilliyi dayanırdı. Həmin dövrdə Azərbaycanın böyük hərb xadimləri Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski haqqında o dövrün məhdud məlumat çərçivəsində əhali arasında söhbətlər dolaşırdı. Balaca Həzi də Səməd bəy Mehmandarovun timsalında özünün qəhrəmanlıq idealını tapmışdı. Birmənalı şəkildə mən düşünürəm ki, Həzi Aslanovun böyük qəhrəmanlıq yolunun başlanmasında Səməd bəy Mehmandarov idealının böyük tarixi rolu olub.

Musa Bağırovun "*Sərkərdənin taleyi*" əsəri müxtəlif dövrləri əhatə edən bədii-publisistik oçerklərdən ibarətdir. Artıq "Lənkərandan başlanan yol" adlı birinci yazı haqqında kifayət qədər məlumat verdik.

Kitabda ikinci yazı "*Müqəddəs arzu*" adlanır. Hərənin bir arzusu ola bilər və öz qəlbində hər kəs arzusunu müxtəlif rənglərdə böyüdə bilər. Həzi üçün varlığına hopan ilk istək elə hərbçi olmaq olub. Təbiidir ki, Həzxi Aslanov bu istəyin ömrünün axırına qədər müqəddəsliyini qoruyub saxlayıb. Həzi Aslanov üçün hərbçi olmaqdan şərəfli, üstün bir niyyət, istək olmayıb. Əsərin növbəti fəsli müharibənin ilk ili adlanır. Düşünmək olar ki, müharibənin ilk ili haqqında kifayət qədər informasiya var. Amma ilk ilin dəhşətlərini hər kəs qədərincə təsəvvür edə bilməz. Müharibə başlayanda Həzi Aslanovun ailəsi Sovetlərin içərilərində idi. Ancaq bu içərilər o demək idi ki, Həzi Aslanovun xidmət etdiyi tank hissəsi tezliklə düşmənlə üzbəüz gələcəkdi: "*Qərargahdan xəbər verdilər ki, alay 10-cu tank diviziyasının əsas heyəti ilə birlikdə düşmənin qarşısına çıxır. Ailələrin köçürülməsinə şəxsi nəzarət ona tapşırıldı. Həzi kiçik avtomaşın dəstəsi ilə qarnizon klubuna yola düşdü. Qarmaqarışıq yığnaqda o ağlayan Xavəri və ona qısılmış 7 yaşlı Tofiqi, 3 yaşlı Arifi gördü. Əvvəl istədi onlara tərəf yerisin, sonra özünü ələ alıb xidməti borcunu yerinə yetirməyin vacibliyini yada saldı*". Əlbəttə, bu hərbçi düşüncəsidir. Müəllifin təxəyyülünün məhsulu olduğu qədər insan düşüncəsinin həqiqətidir.

Növbəti hissə "*Stalinqrad döyüşü*" adlanır. Kimsəyə sirr deyil ki, Stalinqrad döyüşü alman faşistlərinə qarşı müharibədə dönüş nöqtəsi olub. Stalinqrad döyüşü ilə bağlı xronikanın çox maraqlı məqamları var. Sözün həqiqi mənasında Musa Bağırov "*Sərkərdənin taleyi*" kitabında Stalinqrad döyüşünün canlı mənzərəsini yaradıb. Məhz bu döyüşdən sonra Musa Bağırovun qeyd etdiyi kimi Həzi Aslanovun döyüş xasiyyətnaməsinə onun fəaliyyətinə verilmiş yeni, yüksək qiymət yazıldı.

Əsərin beşinci hissəsi "*Düşmən mühasirəni yara bilmir*" adlanır. Bu mühasirə haqqında tarix kitablarında çox yazılsa da, Musa Bağırov Stalinqradda faşistlərin mühasirəyə alınmasını daha canlı və orijinal bir üslubda təqdim edir. Biz burada qəhrəman Həzi Aslanovun çox cəsarətli döyüş səhnələrini görürük. Maraqlıdır ki, mətndə Musa Bağırov yüksək çinli hərbçilərin Həzi Aslanova hörmətli münasibətlərini əks etdirən məktub-mətnlərdən də yerli-yerində istifadə edir.

Əsərin altıncı hissəsi "*Rostov istiqamətində*" adlanır. Bu hissədə müəllif qəhrəmanın keçdiyi döyüş yolunun xeyli əhatəli tarixçəsinə nəzər yetirir. 43-cü ilin yaz qabağında Həzi Aslanovun döyüş durumunu o belə təsvir edir: "*Aslanov alayın keçdiyi döyüş yoluna yekun vurdu. O özü tank alayına deyil, həm də genişləndirilmiş tank qrupuna rəhbərlik etməkdə çox böyük təcrübə toplamışdı. Bu qurum iri bir birləşmə, mürəkkəb bir hərbi orqanizm idi. Həzi Aslanov döyüşlərdə komandir-təşkilatçı kimi möhkəmlənmiş, onun hərbçi məharəti xeyli artmışdı. Döyüş meydanlarında qvardiya polkovniki əsl dəyanət, dəqiqlik, zəkalılıq nümunəsi göstərirdi. Tankçıların onun rəhbərliyi ilə çox uğurlu nəticələr verən manevrlər edirdilər*". Göründüyü kimi, artıq Sovet İttifaqı Qəhrəmanı olan Həzi Aslanovun adı tankla döyüşün əfsanəsi kimi göz önündədir.

Əsərin yeddinci hissəsi "*1943-cü ilin yay döyüşləri*" adlanır. Artıq Stalinqradda hitlerçilərin bel sütunu qırılmışdı. Əslində, Avropada və dünyada hamı bilirdi ki, Hitler Rusiyada - yəni Sovet ittifaqında məhvə məhkumdur. Musa Bağırov bu düşüncənin real döyüş mənzərəsini əsərin bu hissəsində yaradır. Həzi Aslanov artıq təkcə döyüş komandiri deyildi. O, həm də əsgərlərə ata missiyası daşıyırdı. 43-cü illə bağlı epizodu Musa Bağırov bu cümlələrlə bitirir: "*Komandirin nitqini həyəcanla dinləyən döyüşçülər onun rəhbərliyi ilə Stalinqradda, Rostov istiqamətində, Ukraynada apardıqları uğurlu döyüşləri xatırladılar. Onlar nəvaziş və hörmətlə "batya" (ata - red.) adlandırdıqları Həzi Aslanovun rəhbərliyi ilə oda və suya baş vurmağa hazır idilər. Onlar fəxrlə özlərini "aslanovçu" adlandırırdılar*". Həyati epizodlar, əsgər-komandir münasibətləri, bir sözlə, Həzi Aslanovun döyüşçü üçün həqiqətən ata missiyasını daşımaq mahiyyəti açıq-aydın görünür.

Əsərin növbəti hissəsi "*Belarusiya uğrunda döyüşlər*" adlanır. Məlum olur ki, azərbaycanlı qəhrəman keçmiş Sovetlər İttifaqının hər qarışı uğrunda necə cəsarətlə, canı, qanı ilə vuruşub.

"*Pribaltikaya çıxış*" - növbəti hissə belə adlanır. Zənnimcə, Musa Bağırovun əsərin bu hissəsində təqdim etdiyi başlıq mahiyyəti ifadə edir.

Əsərin onuncu hissəsi "*Sonuncu döyüşlər*" adlanır. Artıq 44-cü ilin iyul, avqust döyüşlərindən söhbət gedir. Faşistlərin bel sütunu çoxdan qırılıb. Onu da demək lazımdır ki, H.Aslanov artıq təkcə orduda deyil, bütün Sovetlər İttifaqında əfsanəvi bir qəhrəman kimi tanınmaqdadır.

Bir sözlə Musa Bağırov "*Qəhrəmanın ikinci qızıl ulduzu*" qeydləri ilə nəhayət ki, Həzi Aslanovun tarixi qəhrəmanlığının ikinci təsdiqinə işıq salır. Ancaq həqiqətlər asanlıqla özünə yer tapmır. Qəhrəmanın ikinci qızıl ulduza, yəni ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdimi arxivlərdə gizlədilir.

Bundan sonra hadisələr daha da dramatik xarakter alır. Əsərin on ikinci hissəsi, yəni sonuncu hissəsi "*Qəhrəmanın müəmmalı ölümü*" yazısı ilə tamamlanır. Bu artıq bizim keçib gəldiyimiz sovet cəmiyyətinin qəbul olunmayan tərəfi idi. Müharibədə Həzi Aslanovun adı ilə bağlı ölüm hadisəsi əslində zaman-zaman bağışlanmayan cinayət hadisəsi kimi şərh olunur.

Əsər əfsanəvi Azərbaycan qəhrəmanı haqqında dəqiq faktlarla yeni nəslə məlumat verir.

Həyatım boyu gördüyüm işlərin ən əhəmiyyətliləri sırasında Həzi Aslanov haqqında nəşr etdiyim kitabı birinci hesab edirəm. Mən bu kitabın naşiri olmuşam. Bu kitab üzərində aylarla diqqətlə çalışmışam. Qəhrəmanın həyat və döyüş yolunu əks etdirən maraqlı foto-xronika ilə kitabı zənginləşdirməyə çalışmışam.

Mən bilirəm ki, Həzi Aslanov təkcə ötən əsrin qəhrəmanı deyil, həm də gələcək zamanın qəhrəmanıdır.Düşünürəm ki, Musa Bağırovun "*Sərkərdənin taleyi*" əsəri Həzi Aslanov üçün çox dəyərli abidədir. Onu da qeyd edim ki, xalq yazıçısı Hüseyn Abbaszadənin "*General*" romanı da Həzi Aslanov şəxsiyyətinə, qüdrətinə əbədi abidələrdən biridir.

Mən hər dəfə 9 May günü Həzi Aslanovun məzarını, məzarüstü abidəsini ziyarət etməyi özümə borc bilirəm. Həmin gün prezident veteranlarla görüşür, onların qayğıları ilə maraqlanır. Mən də veteranların arasında olmağımdan məmnunluq duyuram.

***04.05.2022***

***AzərTAC***
***05.05.2022***